# Teatra münasibət tələbə-gənclərdə necədir?



**Mədəniyyət bəşəriyyətin inkişafını təşkil edir. O, hər bir fərdin daxili aləmini, onun potensial imkanlarını formalaşdırır. Bu gün qloballaşan dünyada lokal mədəniyyəti qorumaq günü-gündən çətinləşir. Qloballaşmanın doğurduğu mənfi və müsbət təzahürlər bir çox problemlərin meydana gəlməsinə gətirib çıxarır.**

Bu problemlər içərisində ən çox narahatlıq doğuran teatr məkanımızda tamaşaçı problemidir. Xüsusilə gənclərin teatra münasibəti bu problemin vacib tərkib hissələrindəndir. Bu gün üçün aktual olan bu problemi doğuran bir çox səbəblər var. Hazırda bu səbəbləri araşdırmaq, təhlil etmək, nəzərdən keçirmək gərəklidir.İnsanın formalaşması üçün lazım olan ən geniş məfhumlardan biri mədəniyyətdir. Mədəniyyət böyük anlamdır.

Məlumdur ki, mədəniyyət ictimai-tarixi proseslərdə toplanan maddi və mənəvi sərvətlərin yığılması, toplanması və gələcək nəsillərə ötürülməsi üsuludur. Bilavasitə, mədəniyyət mədəniyyəti mənimsəmiş və mədəniləşmiş bir mühitdə yaşayan və fəaliyyət göstərən insanı özündə birləşdirmişdir. Bu baxımdan mədəniyyətin formalaşması və inkişafı üçün insan səyləri əvəzsizdir.

Bəs mədəniyyətin yaradıcısı olan insan bu gün onun inkişafı və qorunması üçün nə edir? Məncə, ilk baxışdan sadə, lakin çox dərin mənası olan bu sualı cavablandırmaq üçün cəmiyyətimizin ayrı-ayrı təbəqələrinin mədəniyyət müəssisələrinə olan maraqlarının nə dərəcədə məqsədəuyğun olmadığına diqqət yetirmək lazımdır.

Bu gün mədəniyyətimizin bir sıra sahələrində boşluqlar özünü göstərməkdədir. Bu yazımda incəsənətin ən gərəkli, vacib, lazımlı növlərindən olan teatr sənəti üzərində dayanmaq istəyirəm. Çoxnövlü, çoxjanrlı olan teatr. Niyə bu gün bir çoxları teatra bu qədər az diqqət yetirir. Mən bir tələbə olaraq öz yaşıdlarımın içərisində də teatra qarşı biganəlik görürəm. Cəmiyyətimizin, xüsusilə onun bir hissəsi sayılan gəncliyin teatra münasibəti niyə bu gün teatr məkanımızda tamaşaçı problemi yaradılmasına gətirib çıxardır? İncəsənətimizin digər sahələri ilə müqayisədə bugünkü gənclik teatra niyə biganədir?

Hər bir xalqda teatr mədəniyyəti çox vacibdir. Belə olmasaydı min illər bundan əvvəl yaranmış teatr "itib-batar", məhv olub sıradan çıxardı. Azərbaycan milli teatrımızın kökləri çox qədimlərə gedib çıxır. Xalq teatrları "Qaravəllilər", "Məzhəkələr", "Hoqqa oyunu", "Kilimarası", "Sayaçı", "Şəbeh", aşıq yaradıcılığı, deyişmə, monoloq, dialoq və s. yaranmasının sorağı əsrlərin arxasından gəlir. Dünya xalqlarının qədim adət və ənənələri, mərasim, əyləncə və oyunları xalq teatrları ilə bağlı olmuşdur. Xalq mədəniyyətində, xüsusilə mədəni düşüncə tarixində teatr misilsiz rola malikdir.

Ümummilli liderimiz Heydər Əliyev cəmiyyətimizin inkişafında gənclərin rolunun vacibliyini belə vurğulamışdır: "Gənclərin bir vətəndaş kmi yetişməsi üçün onlar hərtərəfli biliyə, yüksək mədəniyyətə və milli keyfiyyətə malik olmalıdır". Öz dili, mədəniyyəti, mənəvi dəyərlərilə tərbiyə olunmuş gənclər heç vaxt Vətəninə ögey münasibət bəsləməz. Hər bir gənc qədimdən qalan milli ənənələrimizi yaddaş səlnaməmizə həkk etdirərək gələcəyə doğru aparmağa borcludur. Çox təssüflər olsun ki, cəmiyyətimizdə bu amal uğrunda yaşayanlar azdır. Bu özünü demək olar ki, bütün sahələrdə, xüsusilə mədəniyyət sahəsində də göstərir.Xüsusilə də incəsənətin sintetik növü olan teatrda.

Təbii ki, bu gün gənclərin teatra biganəliyinin bir çox səbəbləri var:

- tələbənin vaxt məhdudluğu,
- istehsalatda çalışan tələbənin vaxt məhdudluğu,
- tələbənin müxtəlif növ əyləncələrə aludə olmaları,
- ailədəki mühit (tərbiyə),
- maliyyə imkanının aşağı olması…

Heç kəs üçün sirr deyil ki, həddindən artıq ev tapşırığı ilə yüklənən tələbə teatra getmək üçün heç cür vaxt tapmayacaq.

İstehsalatda çalışan tələbə isə əksinə, təhsil almaqla bahəm həm də işləyir və beləliklə, özünün həyati problemlərini özü həll etmək məcburiyyətindədir. Hər iki səbəb nəticə etibarı ilə tələbənin vaxtının məhdudlaşdırılmasına gətirib çıxarır. Birinci qisim tələbəni ancaq təhsil, ikinci qisim tələbəni isə təhsil ilə birlikdə öz həyati problemlərini həll etmək zəruriyyəti maraqlandırır.

Bu gün elə tələbələr də var ki, dərsdən çox əyləncə ilə məşğul olurlar. Bu əyləncələr televizor, radio, kompyuter, mobil telefon və s. ola bilər. Müasir dövrümüzdə az ailə tapılar ki, evlərində kompyuter avadanlığı quraşdırılmamış olsun. Bu gün üçün aktual olan bu informasiya vasitəsindən gənclər hansı məqsədlər üçün istifadə edir? Kimisi söhbət eləyir, kimisi saatlarla ona xeyir gətirməyəcəyi oyunlar oynayır.

Amma bu hal da gəncin həyata baxışına təsirsiz qalmır. Heç vaxt teatra getməyən, hətta maraq göstərməyən valideyn övladına bu məfhumun vacibliyini aşılamaqda acizdir.

Bu gün tələbənin teatra getməməsinin başlıca səbəblərindən biri də maliyyə ilə bağlıdır. Yəni, tələbə onu maraqlandıran nələrəsə maliyyə vəsaiti sərf etməyə meyllidir, teatra getmək üçünsə, heç vəchlə pul xərcləmir. Bəs tamaşaya təmənnasız baxış olsa necə? Təbii ki, 100% tamaşaçı kütləsi üçün nəzərdə tutulan auditoriya tamamilə dolmuş olar.

Bəs bu gün tamaşaçı problemini teatrın özü yaradırmı? Teatr gəncliyi nə dərəcədə özünə cəlb etmək iqtidarındadır?

Təbii ki, bu suallara birmənalı cavab vermək olmaz. Zaman-zaman uzun bir yol keçərək Azərbaycan teatrı böyük uğurlar əldə edib. Teatrımızı Abbas Mirzə Şərifzadə, Sona Hacıyeva, Mərziyə Davudova, Hüseyn Ərəblinski, Əliheydər Ələkbərov, ilk peşəkar qadın aktrisamız Gövhər Qazızadə, Cahangir Zeynalov, Nəsibə Zeynalova kimi korifeylər yaşatmışlar. Teatrda aktyor sənəti başlıca şərt olmaqla səhnə əsərinin səviyyəsi, aktuallığı, zamanla ayaqlaşması tələbinə cavab verməsi də başlıca şərtlər sırasındadır. Nəcəf bəy Vəzirov, Ü.Hacıbəyov, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, C.Cabbarlı, H.Cavid, S.Vurğun, İ.Əfəndiyev və başqalarının yaratdıqları pyeslər həmişə insanların marağına səbəb olmuşdur.

Bəs bu gün necə? Adlarını çəkdiyimiz peşəkar aktyorların və dramaturqların heç biri artıq həyatda yoxdur, onlar daha yaddaqalan obrazlar yaratmayacaqlar. Amma bu da danılmaz faktdır ki, bu peşəkar məktəbin davamçıları səhnəmizdə hələ də var: Yaşar Nuri, Amalya Pənahova, İlham Namiq Kamal, Səyavuş Aslan... Bəs sonra onları əvəzləyə biləcək nəsil yetişirmi?

Tamaşaçı hər hansı tamaşaya bir dəfə baxdıqdan sonra, sözsüz ki, ikinci dəfə bu tamaşaya baxmağa elə də meyli olmayacaq, o yeniliklər axtaracaq.Bu günün insanlarının məhz bugünkü hadisələri nümayiş etdirən yeni tamaşalara ehtiyacı var. Beləliklə, məlum oldu ki, bu gün tələbə-gənclərin teatra biganəliyində onların yalnız vaxtının məhdudluğu, müxtəlif növ əyləncələrə meyli deyil, həm də teatrlarımız üçün günün tələblərinə cavab verən pyeslərin yazılmaması rol oynayır.

Bu gün teatr hər bir gənci cəlb etməyi bacarmalıdır.

Eyni zamanda insan bir tamaşaçı olaraq kiçik yaşlarından yetişməlidir. Kukla teatrından başlanan bu proses yaşa uyğun olaraq davam etdirilməlidir. Bir var göz açıb Ü.Hacıbəyova, Q.Qarayeva, yaxud Bethovenə qulaq asasan, bir də var meyxana eşidəsən. Təbii ki, formalaşan bu zövqlər, təfəkkürlər arasında fərqlər də böyük olacaq.

Hər bir insan həyatını özü qurur. İnsan özünü şəxsiyyət kimi başa düşməsə, öz həyatının mənasını da anlaya bilməz. İnsan özü həyatına rəng qatmalı, onu daha maraqlı, daha faydalı qurmağa çalışmalıdır.

**Bugünkü əyləncə nə qədər rəngarəng, cəlbedici olsa da, televiziya həyat hadisələrini geniş şərh etsə də, teatrdakı canlılığın, dinamikanın yerini heç nə ilə əvəz etmək mümkün deyil. Aktyorun eyni zaman və məkanda əsərin süjet xəttinə uyğun hadisəni səhnədə canlı şəkildə göstərmək cəhdi yalnız teatra xasdır. Hər bir tələbə bu haqda düşünməli, vaxtını səmərəli təşkil etmək yolları haqda götür-qoy etməlidir.**

Lalə TEYMUROVA,
*ADMİU-nun tələbəsi*